

*Oqtay Rza*

**Abşeronun ”Qızılqum” adlanan səfalı guşəsində keçirilən yubiley məclisindən baş redaktor Vaqif Əlixanlının arabasında paytaxta qayıdanda saatın əqrəbləri 1-ə doğru irəliləyirdi. Artıq ilin 7-ci ayının 13-cü günü başlanmışdı...**

## GECƏ BİRİN YARISINDA

Quştək yenə uçur xəyal,
Duyğu ilə dolub sinəm;
Dəniz boyda dolub sinəm,
Neçə qapı açır xəyal
Gecə birin yarısında.

Ay şəhəri çimizdirir,
Mışıl-mışıl yatan min-min.
Aysel adlı qəşəng gəlin
Aynurunu əmizdirir
Gecə birin yarısında.

Fikrə dalıb gün uzunu,
Oğlan alıb rədd cavabı;
Sevilənin sərt cavabı
Ərşə çəkib yuxusunu
Gecə birin yarısında.

Çoxdan görə bilmədiyim
Çiçək satan o qız hanı?
Qəribsəyib gül dükanı...
Həsrətimi necə deyim
Gecə birin yarısında.

Sərxoş guya suya batar,
Görüb işıq zolağını -
Şalvarının balağını
Çirmələyib addım atar
Gecə birin yarısında.

Bacı, qardaş yola düşür
Çünki Cənub həsrəti var;
Astaraya gedən qatar
Yavaş-yavaş yola düşür
Gecə birin yarısında.

Məmməd Araz fəlsəfəsi:
”Dünya mənim, dünya sənin...”
Unudulmaz Nərminənin
Radiodan gəlir səsi
Gecə birin yarısında.

Uyumağın heç yerimi?
Nigaranlıq çəkənlərə -
Söz çələngi hörə-hörə,
Bəxş edirəm bu şeirimi
Gecə birin yarısında!

## ... VARDI

Bir əvəzsiz ümidgahım,
Bir çıraqban binam vardı;
Dağlar aşıb yol getməyə
Məndə böyük inam vardı.

Dünya ulu, dünya qədim,
Salnamələr vərəqlədim;
Köklü, möhkəm qaya idim,
Öz kəkliyim, xınam vardı.

Xəyal gəzir ötən gündə,
Qanadlanıb uçur kəndə;
İlk məhəbbət cücərəndə
Nə yarım, nə sonam vardı.

Gözümdə yaş gilə-gilə,
Hərdən artıb dönür selə;
O çağ heç vaxt düşməz ələ,
Çünki onda anam vardı.

Arasında gözlə qaşın
Meyarıdır illər yaşın;
... Altı əziz, mərd qardaşın
Tək bacısı Xanım vardı!

## AKİF

Ey sevimli Zeynəbin
Qoçaq qardaşı Akif!
Unudulmaz babanın
Əziz adaşı Akif!
Məktəbdən biliklə gəl,
Evə ”əla-beş” gətir!
Arzu, ümid bağında
Hər il təzə gül bitir!

Sevinsin atan Elnur,
Sevinsin anan Günel!
Ziyalı tək tanısın
Akifi ölkə, yurd, el!

Səni özündən də çox
İstəyən Vüqar Dədə
Gah gəlir, gah zəng edir
Yaşasa da Gəncədə.

Xoşdur gözəl Bakıdan
Muğana da getməyin,
Salyanı xatırladan
Kəlmələr işlətməyin.
Yaşa xoşbəxt, şad, azad -
Nurludur seçdiyin yol;
Məmmədyarlı nəslini
Ucaldan vətəndaş ol!

## MÜBARƏK!

Düzlük haqq səsidir Rafiq Hacının,
Tanrı yiyəsidir Rafiq Hacının;
Hörmət, səmimiyyət, xoş duyğulardır
Bizə hədiyyəsi Rafiq Hacının.

Gül açıb söz, sənət deyilən bağı,
Başlanır ömrünün müdriklik çağı;
Mətbuat Mərkəzi bəzənib bu gün
Ustadın eşqinə bayramsayağı.

Zirvədən-zirvəyə yeni yol salıb,
Özü ucaldıqca xəbis alçalıb;
Hətta yazarların yığıncağında
Beynəlxalq ədəbi mükafat alıb.

Tuturuq cəsura, mərdə tən onu,
Görürük qayğılı, kövrək, şən onu;
Qələm yoldaşlarım sıxır əlini,
Təbrik eyləyirlər ürəkdən onu.

Onu etibarlı həmkar sayıram,
Haqqında efirdən xoş söz yayıram;
Möhkəm sağlamlıqla bərabər uğur,
Yüzdən çox ilk bahar arzulayıram!

## QIRMIZIKƏND

Muğanın dəyərli parçası burda,
Oxuyur ilk bahar carçısı burda;
Yaşıllıq-çöllərin xalçası burda.
Bərəkət rəmzidir toxum da, dən də,
Gəlmişəm dost-doğma Qırmızıkəndə!

Burda yüz cərgəli nar bağı vardı,
Abuzər, ixtiyar növrağı vardı;
Axşam Əhədbaba çırağı vardı.
Fəsillər arxada, fəsillər öndə,
Gəlmişəm dost-doğma Qırmızıkəndə.

Ehtiyac canlarda od qalamışdı,
Qurd Maral inəyi parcalamışdı;
... Baxıram - dörd tərəf necə tanışdır!
Qalıb uşaqlığım min ötən gündə,
Gəlmişəm dost-doğma Qırmızıkəndə!

Əmim sədrliyi ürəkdən seçib,
Bəzən çobanlar da taxıl, ot biçib;
Sinəmə ən şirin duyğular köçüb.
Heç vaxt unutmuram keçmişi mən də,
Gəlmişəm dost-doğma Qırmızıkəndə!

ədalət 2019.- 15 avqust.- S.8.